**Təsdiq edirəm:**
Biznes mühiti və beynəlxalq
reytinqlər üzrə Komissiyanın sədri,
Azərbaycan Respublikası Baş nazirinin
birinci müavini Yaqub Eyyubov

_________________

17.11.2022-ci il

**Dünya Bankı Qrupunun "Əlverişli Biznes Mühiti" layihəsinin "Mübahisələrin həlli" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin həyata keçirilməsinə dair 2022-2023-cü illər üzrə Yol Xəritəsi**

| Sıra №-si | Alt komponentlərin tələbləri | Görüləcək tədbirlər | Son icra müddəti | İcra/Tövsiyə | Məsul şəxslər |
|---|---|---|---|---|---|
| **1. Məhkəmədə çəkişmə proseslərinə tətbiq olunan qaydaların keyfiyyəti** | | | | | |
| **1.1. Məhkəmədaxili çəkişmə proseslərinə tətbiq edilən qaydaların səmərəliliyinin və keyfiyyətinin qiymətləndirilməsi** | | | | | |
| 1.1.1. | Mülki prosessual qanunvericilikdə kommersiya mübahisələri üzrə məhkəmə çəkişməsinin müxtəlif mərhələləri üçün vaxt çərçivələrinin müəyyən edilib-edilməməsi | Kommersiya mübahisələri üzrə məhkəmə çəkişməsinin müxtəlif mərhələləri üçün vaxt çərçivələrinin tətbiqinin zəruriliyini müəyyən etmək məqsədilə monitorinqlərin aparılması və nəticəsindən asılı olaraq müvafiq təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.05.2023 | Tövsiyə edilir: Ali Məhkəmə, Məhkəmə-Hüquq Şurası, Vəkillər Kollegiyası<br><br>İcraçı: Ədliyyə Nazirliyi, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi | Yusif Bayramov, Seyfəlpaşa Əliyev, Elçin Usub, Ceyhun Hətəmov, Sübhi Kazımov |
| 1.1.2. | Məhkəmə çəkişməsinin müvafiq mərhələləri üzrə müəyyən edilmiş vaxt çərçivələrinə əməl etməməsinə görə hakimin və iddiaçıların məsuliyyət daşıyıb-daşımaması | Mülki Prosessual Məcəllədə iş vaxtını itirməyə görə məbləğin tutulmasını və proses iştirakçılarının cərimələnməsini nəzərdə tutan 120-ci və 174.5-ci maddələr arasındakı uyğunsuzluğun aradan qaldırılması məqsədilə müvafiq təkliflərin hazırlanaraq Nazirlər Kabinetinə təqdim edilməsi | 01.11.2023 | İcraçı: Ədliyyə Nazirliyi<br><br>Tövsiyə edilir: Ali Məhkəmə, Vəkillər Kollegiyası | Adil Əliyev, Sübhi Kazımov, Yusif Bayramov, Elçin Usub, Ceyhun Hətəmov |

| | | | | | |
|---|---|---|---|---|---|
| 1.1.3. | Məhkəmə qərarlarının icra edilməli olduğu vaxt standartlarının olub-olmaması | Məhkəmə və digər orqanların qərarlarının icrası ilə əlaqədar müddətləri konkret müəyyən edən elektron hərracların keçirilməsi qaydaları ilə bağlı hazırlanmış yeni layihənin, habelə icra sənədləri üzrə icraata başlanılması və icra hərəkətlərinin həyata keçirilməsi müddətlərinin təkmilləşdirilməsi ilə əlaqədar qanunvericiliyin araşdırılması və müvafiq təkliflərin hazırlanaraq Nazirlər Kabinetinə təqdim edilməsi | 01.05.2023 | İcraçılar: Ədliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, Mərkəzi Bank | İlqar Cəfərov, Yaqub Qurbanov, Adil Əliyev, Nuranə Abbasova, Adil Əkbərov, Rasim Məmmədov |
| 1.1.4. | İcra məmuru tərəfindən hansı növ aktivlərə həbs qoyulması | İcra məmurlarının borclunun əmlakı üzərinə həbs qoyulması ilə bağlı səlahiyyətlərinin genişləndirilməsi, tələbin borclunun bəzi aktivlərinə (ümumi mülkiyyətdə olan payına, iştirakçı olduğu hüquqi şəxsin əmlakındakı payına, qiymətli kağızlarına, depozit seyflərdəki qiymətli əşyalarına, girov qoyulmuş əmlakına, debitor borclara və sair) yönəldilməsi qaydalarının müəyyən olunması, yaxud mövcud normaların təkmilləşdirilməsi ilə bağlı təkliflərin hazırlanaraq Nazirlər Kabinetinə təqdim edilməsi | 01.06.2023 | İcraçılar: Ədliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi, Mərkəzi Bank<br><br>Tövsiyə edilir: Ali Məhkəmə | İlqar Cəfərov, Yaqub Qurbanov, Adil Əliyev, Yusif Bayramov, Nuranə Abbasova, Rasim Məmmədov |
| **2. Mübahisələrin alternativ həlli mexanizmlərini tənzimləyən qaydaların keyfiyyəti** | | | | | |
| **2.1. Mübahisələrin alternativ həlli mexanizmlərini (arbitraj və mediasiya) tənzimləyən normativ hüquqi aktların keyfiyyətinin qiymətləndirilməsi** | | | | | |
| 2.1.1. | Arbitraj bölməsi üzrə:<br>• prosessual müddətlər və arbitraj qərarlarının təsdiqi, tanınması və icrasının qiymətləndirilməsi;<br>• arbitraj müqaviləsinin forması;<br>• kommersiya mübahisələrinin arbitraj yolu ilə həllinin mümkünlüyü;<br>• tərəflərin müstəqilliyi və arbitraja məhkəmə dəstəyi;<br>• arbitraj müddəalarının və ya razılaşmalarının etibarlılığına dair qərarlar və arbitraj prosesinə ümumi yardım;<br>• arbitrlərin müstəqilliyi və qərəzsizliyi;<br>• dövlət qurumlarına qarşı icralar;<br>• sürətləndirilmiş icraat;<br>• çoxtərəfli icraat və s. | "Arbitraj haqqında" yeni qanun layihəsinin hazırlanması və müvafiq qaydada Nazirlər Kabinetinə təqdim edilməsi | 20.12.2022 | İcraçılar: Ədliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi<br><br>Tövsiyə edilir: Ali Məhkəmə, Bakı Apellyasiya Məhkəməsi, Mediasiya Şurası | Adil Əliyev, Nuranə Abbasova, Roman Qaraşov, Ramiz Qasımzadə, Yusif Bayramov, Asim Zülbalayev |

| | | | | | |
|---|---|---|---|---|---|
| 2.1.2. | Mediasiya bölməsi üzrə:<br>• mediasiya və ya barışığa cəhd etmək üçün ilkin şərtlər;<br>• bunlarla məşğul olmaq üçün maliyyə stimullarının (güzəştlərin) mövcudluğu;<br>• barışıq sazişlərinin icrası rejimi. | Kommersiya sektoru üzrə bütün mübahisələrin mediasiya vasitəsilə həlli ilə əlaqədar maarifləndirmə işlərinin aparılması | Mütəmadi | Tövsiyə edilir: Mediasiya Şurası, dövlət-özəl tərəfdaşlığı çərçivəsində cəlb edilən tərəflər<br><br>İcraçı: Ədliyyə Nazirliyi, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi | Nadir Adilov |
| **3. Kommersiya məhkəmə çəkişmələrində dövlət xidmətlərinin adekvatlığı** | | | | | |
| **3.1. İnstitusional struktur** | | | | | |
| **3.1.1. İnstitusionallaşmanın keyfiyyətinin qiymətləndirilməsi** | | | | | |
| 3.1.1.1. | Qanunların ictimaiyyətə açıq olub-olmaması | Qanunvericiliyin vahid elektron bazasında kommersiya mübahisələrini tənzimləyən hüquqi aktların ingilis dilinə tərcümə edilmiş variantının yerləşdirilməsi ilə bağlı zəruri tədbirlərin görülməsi | 01.12.2023 | İcraçılar: Ədliyyə Nazirliyi, Maliyyə Nazirliyi, Azərbaycan Dövlət Tərcümə Mərkəzi, digər aidiyyəti dövlət qurumları, dövlət-özəl tərəfdaşlığı çərçivəsində cəlb olunan tərəflər | Adil Əliyev, Ağakərim Səməd-zadə |
| 3.1.1.2. | Kommersiya mübahisələri üzrə qərarların açıq mənbələrdə dərc edilib-edilməməsi | Süni intellekt elementləri tətbiq edilməklə məhkəmə qərarlarının anonimləşdirilməsi prosedurunun yenidən qurulması | 01.12.2023 | İcraçı: Ədliyyə Nazirliyi<br><br>Tövsiyə edilir: Ali Məhkəmə | Ağakərim Səməd-zadə, Sübhi Kazımov, Yusif Bayramov |
| 3.1.1.3. | Kommersiya mübahisələri üzrə qərarların kifayət qədər əsaslandırılıb-əsaslandırılmaması | 1. Qeyd olunan alt komponentin tələblərinə uyğun olaraq bu sahədə hakimlər üçün xüsusi təlimlərin keçirilməsi | 01.01.2023 | İcraçı: Ədliyyə Nazirliyi (o cümlədən Ədliyyə Akademiyası)<br><br>Tövsiyə edilir: Ali Məhkəmə, Məhkəmə-Hüquq Şurası | Şahin Əliyev, Sübhi Kazımov, Yusif Bayramov, Seyfəlpaşa Əliyev |
| | | 2. Kommersiya mübahisələri üzrə 2022-ci ildə qəbul edilmiş qərarların monitorinqinin aparılması və həmin qərarların kifayət qədər əsaslandırılıb-əsaslandırılmaması sahəsində vəziyyətin qiymətləndirilərək nəticələrinə dair hesabatın Komissiyaya təqdim olunması | 01.05.2023 | Tövsiyə edilir: Ali Məhkəmə, apellyasiya məhkəmələri, kommersiya məhkəmələri, Məhkəmə-Hüquq Şurası<br><br>İcraçı: Ədliyyə Nazirliyi, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi | Yusif Bayramov, Asim Zülbalayev, Seyfəlpaşa Əliyev |

| | | | | | |
|---|---|---|---|---|---|
| **3.2. Məhkəmənin avtomatlaşdırılması və elektron xidmətlər** | | | | | |
| **3.2.1. Məhkəmə sisteminin müxtəlif səviyyələrində kommersiya məhkəmə çəkişmələrinin rəqəmsallaşdırılmasının qiymətləndirilməsi** | | | | | |
| 3.2.1.1. | Rəqəmsal həllərin aşağıdakıları faktiki olaraq təmin edib-etməməsi:<br>• emal vaxtını sürətləndirməklə işin idarə olunmasında səmərəliliyin artırılması, onlayn alətlər vasitəsilə ədalət mühakiməsinə daha yaxşı çıxışın təmin edilməsi;<br>• informasiyaya çıxışı asanlaşdırmaqla şəffaflığın artırılması. | 1. Məhkəmədə işlərə baxılması müddətlərinin düzgün idarə olunması və vaxt bölgüsünün səmərəliliyinin artırılması məqsədilə bütün instansiya məhkəmələri üzrə “İdarəetmə pəncərəsi”nin fəaliyyətinin təmin edilməsi | 01.07.2023 | İcraçılar: Ədliyyə Nazirliyi, digər aidiyyəti dövlət qurumları<br><br>Tövsiyə edilir: Ali Məhkəmə | Ağakərim Səməd-zadə, Yusif Bayramov |
| | | 2. “Köçürmə yolu ilə ödənilən dövlət rüsumlarının Hökumət Ödəniş Portalı və ya “Asan ödəniş” sistemi üzərindən həyata keçirilməsi üçün qanunvericiliyə müvafiq dəyişikliklərin edilməsinə dair təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.08.2023 | İcraçılar: Ədliyyə Nazirliyi, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | Ağakərim Səməd-zadə, Adil Əkbərov, Adil Əliyev |
| | | 3. Məhkəmə qərarlarının icra üçün İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə və Milli Depozit Mərkəzinə də göndərilməsi, habelə icra prosesi barədə məlumatın elektron qaydada məhkəmələrə verilməsinin təmin edilməsi | 01.06.2023 | İcraçılar: Ədliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi (Dövlət Vergi Xidməti)<br><br>Tövsiyə edilir: Milli Depozit Mərkəzi | Ağakərim Səməd-zadə, İlqar Cəfərov, Yaqub Qurbanov |
| | | 4. “Elektron məhkəmə” informasiya sistemində elektron kabinetin funksional imkanlarının genişləndirilməsi və qeydiyyat prosesinin təkmilləşdirilməsi | 01.01.2023 | İcraçılar: Ədliyyə Nazirliyi, digər aidiyyəti dövlət qurumları | Ağakərim Səməd-zadə, Sübhi Kazımov |
| | | 5. Kassasiya şikayəti verildikdə şikayətin onu verən şəxs və onun vəkili tərəfindən imzalanma prosesinin texniki imkanlarının təkmilləşdirilməsi | 01.01.2023 | İcraçılar: Ədliyyə Nazirliyi, digər aidiyyəti dövlət qurumları | Ağakərim Səməd-zadə, Sübhi Kazımov |
| | | 6. Vahid Məhkəmə Portalının yeni versiyasının hazırlanması | 01.12.2023 | İcraçılar: Ədliyyə Nazirliyi, digər aidiyyəti dövlət qurumları<br><br>Tövsiyə edilir: Ali Məhkəmə | Ağakərim Səməd-zadə, Sübhi Kazımov, Yusif Bayramov |
| | | 7. Vəkillər üçün “Elektron məhkəmə” informasiya sisteminə ötürülən məlumatlardan sorğu əsasında istifadə etmək imkanının yaradılması ilə bağlı qanunvericiliyin araşdırılması və müvafiq təkliflərin hazırlanaraq Nazirlər Kabinetinə təqdim edilməsi | 01.10.2023 | İcraçılar: Ədliyyə Nazirliyi, digər aidiyyəti dövlət qurumları<br><br>Tövsiyə edilir: Ali Məhkəmə, Vəkillər Kollegiyası | Adil Əliyev, Sübhi Kazımov, Elçin Usub, Ceyhun Hətəmov, Yusif Bayramov |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | 8. “Elektron məhkəmə” informasiya sisteminin avtomatlaşdırılma dərəcəsinin yüksəldilməsi (bir əməliyyat daxilində bir neçə hərəkətin icra edilməsi, əməliyyatların qruplaşdırılması üzrə tədbirlər görülməsi) | 01.10.2023 | İcraçı: Ədliyyə Nazirliyi<br><br>Tövsiyə edilir: Ali Məhkəmə | Ağakərim Səməd-zadə, Yusif Bayramov |
| | | 9. Yekun məhkəmə qərarlarının vahid bazasında mətn üzrə axtarış imkanının yaradılması | 01.03.2023 | İcraçı: Ədliyyə Nazirliyi<br><br>Tövsiyə edilir: Ali Məhkəmə | Ağakərim Səməd-zadə, Yusif Bayramov |
| | | 10. Məhkəmə icraatının elektronlaşdırılması prosesini sürətləndirmək məqsədilə istifadəçilərin elektron kabinetdən istifadəyə təşviq edilməsi, o cümlədən ilk dəfə elektron kabinet vasitəsilə məhkəməyə müraciət edən şəxslərə dövlət rüsumunun ödənilməsində güzəştlərin tətbiq edilməsi üçün qanunvericiliyə dəyişikliklərin edilməsinə dair təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.09.2023 | Tövsiyə edilir: Ali Məhkəmə<br><br>İcraçılar: Ədliyyə Nazirliyi, Maliyyə Nazirliyi | Yusif Bayramov, Adil Əliyev, Ağakərim Səməd-zadə |
| 3.2.1.2. | Elektron sistemlərdə işlərin elektron qaydada təqdim edilməsi | Gəncə və Şirvan apellyasiya məhkəmələrində, həmçinin onların yurisdiksiyasında olan məhkəmələrdə “Elektron məhkəmə” informasiya sisteminin tətbiqinin təmin edilməsi üçün zəruri infrastrukturun yaradılması | 01.12.2023 | İcraçı: Ədliyyə Nazirliyi<br><br>Tövsiyə edilir: Ali Məhkəmə | Ramin Qaraqurbanlı, Sübhi Kazımov, Ağakərim Səməd-zadə, Yusif Bayramov |
| 3.2.1.3. | Məhkəmələr və məhkəməyə müraciət edənlər arasında prosessual sənəd və bildirişlərin mübadiləsi | 1. “Elektron məhkəmə” informasiya sistemində iddia ərizəsinin və ona əlavə edilən sənədlərin digər tərəfin elektron kabinetinə göndərilməsi, o cümlədən onların alınmasını təsdiq edən sənədin (bildirişin) sistemdə formalaşdırılması imkanının yaradılması | 01.07.2023 | İcraçılar: Ədliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi (Dövlət Vergi Xidməti), digər aidiyyəti qurumlar | Ağakərim Səməd-zadə, Sübhi Kazımov, Ramiz Qasımzadə |
| | | 2. Vergi ödəyicilərinin Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemində olan elektron kabinetinə məhkəmə bildirişlərinin və kommersiya mübahisələri üzrə pretenziyaların göndərildiyini nəzərə alaraq, həmin sistemdə məxfilik şərtləri gözlənilməklə məhkəmə qərarlarının da yerləşdirilməsi | 01.06.2023 | İcraçılar: Ədliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi (Dövlət Vergi Xidməti), digər aidiyyəti qurumlar | Ağakərim Səməd-zadə, Ramiz Qasımzadə |
| 3.2.1.4. | Virtual dinləmələrin keçirilməsi | 1. Şahidin və ekspertin iclaslara videokonfrans əlaqə sistemindən istifadə edilməklə (onlayn) qoşulmasının təşkil edilməsi, bu məqsədlə iltizamın elektron qaydada sistemdə formalaşdırılması və təsdiq edilməsi imkanının yaradılması | 01.07.2023 | İcraçı: Ədliyyə Nazirliyi<br><br>Tövsiyə edilir: Ali Məhkəmə | Ramin Qaraqurbanlı, Ağakərim Səməd-zadə, Aslan Muradov, Yusif Bayramov |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | 2. Məhkəmə zallarında müvafiq infrastrukturun qurulması işlərinin yekunlaşdırılması | 01.08.2023 | İcraçı: Ədliyyə Nazirliyi<br><br>Tövsiyə edilir: Ali Məhkəmə | Ramin Qaraqurbanlı, Ağakərim Səməd-zadə, Aslan Muradov, Sübhi Kazımov, Yusif Bayramov |
| 3.2.1.5. | Süni intellekt (AI) və maşınla öyrənmənin (ML) daha ədalətli məhkəmə qərarlarının qəbul edilməsində tətbiqi | 1. “Elektron məhkəmə” informasiya sistemində mövcud olan elektron məhkəmə statistikası sisteminin yoxlanılması, son 6 ay üzrə məhkəmə statistikasının sistem vasitəsilə (sistem daxilində) hazırlanmasının və onların bu sistem vasitəsilə tərtib olunaraq dərc olunmasının, eləcə də kommersiya mübahisələri üzrə hesabatların sistem daxilində elektron qaydada formalaşdırılmasının və elektron dərc edilməsinin monitorinq olunması və yaranan problemlərin aradan qaldırılması | 01.10.2023 (son 6 ay üzrə məlumatların yoxlanılması və yenilənməsi)<br><br>Hər yarımillikdən sonrakı 1 ay ərzində* (monitorinqin aparılması) | İcraçı: Ədliyyə Nazirliyi | Sübhi Kazımov, Ağakərim Səməd-zadə, |
| | | 2. “Elektron məhkəmə” informasiya sistemində müvafiq statistik məlumatlar müəyyən edildikdən sonra onların yerləşdirilməsi məqsədilə məhkəmə aparatı işçilərinə təlimlərin keçirilməsi | Hər rüb | Tövsiyə edilir: apellyasiya məhkəmələri<br><br>İcraçı: Ədliyyə Nazirliyi | Asim Zülbalayev, Ağakərim Səməd-zadə |
| | | 3. Süni intellekt əsasında avtomatlaşdırılmış rejimdə formalaşdırılması mümkün olan məhkəmə aktlarının təhlil edilməsi və nəticələri üzrə təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.11.2023 | İcraçı: Ədliyyə Nazirliyi<br><br>Tövsiyə edilir: Ali Məhkəmə, Bakı Apellyasiya Məhkəməsi | Ağakərim Səməd-zadə, Yusif Bayramov, Asim Zülbalayev |
| **4. Kommersiya mübahisələrinin həllinin asanlığı** | | | | | |
| **4.1. Məhkəmə sisteminə maneələr** | | | | | |
| **4.1.1. Kommersiya mübahisələrinin məhkəməyə verilməsi üçün əsas maneələrin müəyyən edilməsi** | | | | | |
| 4.1.1.1. | Hakimlərin kifayət qədər təcrübəsinin olmaması | Hakimlərə kommersiya mübahisələri ilə bağlı sahələr üzrə ixtisaslaşmış təlimlərin keçirilməsi | Hər rüb | İcraçı: Ədliyyə Nazirliyi (o cümlədən Ədliyyə Akademiyası)<br><br>Tövsiyə edilir: Ali Məhkəmə | Şahin Əliyev, Sübhi Kazımov, Yusif Bayramov |

| | | | | | |
|---|---|---|---|---|---|
| 4.1.1.2. | Məhkəmə prosesinin uzanması | 1. İşin məhkəmədə baxılmağa hazırlanması mərhələsinin düzgün və səmərəli aparılması ilə bağlı hakimlərə və məhkəmə aparatı işçilərinə təlimlərin keçirilməsi | Hər rüb | İcraçı: Ədliyyə Nazirliyi (o cümlədən Ədliyyə Akademiyası)<br><br>Tövsiyə edilir: Ali Məhkəmə | Şahin Əliyev, Yusif Bayramov, Sübhi Kazımov, |
| | | 2. Məhkəmədə baxılan işin "Elektron məhkəmə" informasiya sistemində 3 dəfədən artıq təxirə salınmasının texniki cəhətdən məhdudlaşdırılması | 01.04.2023 | İcraçı: Ədliyyə Nazirliyi<br><br>Tövsiyə edilir: Ali Məhkəmə | Ağakərim Səməd-zadə, Yusif Bayramov |
| **4.2. Kommersiya mübahisələrinin həlli üçün tələb olunan vaxt** | | | | | |
| **4.2.1. Birinci instansiya məhkəməsində:** | | | | | |
| 4.2.1.1. | Ekspert rəyinin hazırlanmasına sərf olunan vaxt | 1. Məhkəmə ekspertizası fəaliyyətinin təkmilləşdirilməsi, ekspertlərin iş yükünün azaldılması, ekspert rəylərinin keyfiyyətinin artırılması məqsədilə mütəxəssislərin ekspertizaya cəlb edilməsi ilə bağlı qanunvericiliyə dəyişikliklərin edilməsinə dair təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.07.2023 | İcraçı: Ədliyyə Nazirliyi | Rahim Rəhimov, Adil Əliyev |
| | | 2. Məhkəmə Ekspertizası Mərkəzi üçün torpaq sahələrinin ünvanları (kənd təsərrüfatı təyinatlı torpaq sahələrinin isə yerləşməsi) ilə bağlı İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətində olan məlumatlardan sərbəst istifadə etmək imkanının yaradılması məqsədilə qanunvericiliyin araşdırılması və müvafiq təkliflərin hazırlanaraq Nazirlər Kabinetinə təqdim edilməsi | 01.06.2023 | İcraçılar: Ədliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi, digər aidiyyəti qurumlar | Rahim Rəhimov, Nuranə Abbasova, Adil Əliyev |
| 4.2.1.2. | Məhkəmə qətnamələrinin çıxarılmasına sərf olunan vaxt | Məhkəmə qətnamələrinin çıxarılması müddətləri üzrə monitorinqlərin aparılması və nəticəsindən asılı olaraq müvafiq təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | Hər yarımillikdən sonrakı 1 ay ərzində* | Tövsiyə edilir: Ali Məhkəmə, Bakı Apellyasiya Məhkəməsi<br><br>İcraçı: Ədliyyə Nazirliyi | Yusif Bayramov, Asim Zülbalayev, Sübhi Kazımov |
| **4.2.2. Apellyasiya şikayəti üzrə məhkəmə baxışı çərçivəsində aşağıdakı hallar üzrə müddətlərin qiymətləndirilməsi:** | | | | | |
| 4.2.2.1. | Apellyasiya şikayətinin verilməsi | Apellyasiya instansiyasında işlərə baxılan zaman apellyasiya şikayətlərinin verilməsi, sənədlərin "Elektron məhkəmə" informasiya sistemində yerləşdirilməsi müddətlərinin qiymətləndirilməsi məqsədilə monitorinqlərin aparılması, nəticəsindən asılı olaraq müvafiq təkliflərin hazırlanması və Komissiyaya təqdim edilməsi | Hər yarımillikdən sonrakı 1 ay ərzində* | Tövsiyə edilir: Ali Məhkəmə, Bakı Apellyasiya Məhkəməsi<br><br>İcraçı: Ədliyyə Nazirliyi | Yusif Bayramov, Asim Zülbalayev |

| | | | | | |
|---|---|---|---|---|---|
| 4.2.2.2. | Məhkəmənin yekun qətnaməsinin surətinin əldə edilməsi, əmlakın üzərinə həbs qoyulması ilə bağlı müddətlərin qiymətləndirilməsi | Məhkəmənin yekun qətnaməsinin icraya yönəldilməsi, əmlakın üzərinə həbs qoyulması müddətlərinin qiymətləndirilməsi məqsədilə monitorinqlərin aparılması və nəticəsindən asılı olaraq müvafiq təkliflərin hazırlanması və Komissiyaya təqdim edilməsi | Hər yarımillikdən sonrakı 1 ay ərzində* | Tövsiyə edilir: Ali Məhkəmə, Bakı Apellyasiya Məhkəməsi<br>İcraçı: Ədliyyə Nazirliyi | Yusif Bayramov, Asim Zülbalayev, İlqar Cəfərov, Yaqub Qurbanov |
| 4.2.2.3. | Əmlakın üzərinə həbs qoyulması | Məhkəmələr tərəfindən əmlakın üzərinə həbs qoyulması ilə bağlı icra məmurlarının təqdimatlarına qısa müddətdə baxılması üçün qanunvericilikdə dəyişikliklərin edilməsi ilə əlaqədar təkliflərin hazırlanması və Nazirlər Kabinetinə təqdim edilməsi | 01.09.2023 | İcraçı: Ədliyyə Nazirliyi<br>Tövsiyə edilir: Ali Məhkəmə | İlqar Cəfərov, Yaqub Qurbanov, Adil Əliyev, Yusif Bayramov |
| **4.3. Kommersiya mübahisələrinin həlli üçün tələb olunan xərc** | | | | | |
| **4.3.1. Xərc göstəricisi: kommersiya məhkəməsində çəkilən xərcləri və rüsumları qiymətləndirir** | | | | | |
| 4.3.1.1. | Vəkil üçün ödənişlər | Kommersiya mübahisələri üzrə iddia tam və ya qismən təmin edildiyi təqdirdə cavabdehdən tutulmalı olan hüquqi xidmət haqqı ilə bağlı qanunvericiliyin nəzərdən keçirilməsi və müvafiq təkliflərin hazırlanaraq Nazirlər Kabinetinə təqdim edilməsi | 01.08.2023 | İcraçı: Ədliyyə Nazirliyi<br>Tövsiyə edilir: Ali Məhkəmə, Vəkillər Kollegiyası | Elçin Usub, Adil Əliyev, Yusif Bayramov |
| 4.3.1.2. | Ekspertlərə ödənişlər | Ekspertiza xərclərinin əvvəlcədən məhkəmənin depozit hesabına ödənilməsi ilə əlaqədar zəruri tədbirlərin görülməsi | 01.08.2023 | İcraçı: Ədliyyə Nazirliyi<br>Tövsiyə edilir: Ali Məhkəmə | Rahim Rəhimov, Yusif Bayramov |
| 4.3.1.3. | İcra ödənişi | Qeyri-əmlak xarakterli tələbin nəzərdə tutulduğu icra sənədləri üzrə icra ödənişi məbləğinin artırılmasının, habelə icra ödənişinin tutulma vaxtının müəyyən edilməsinin nəzərdən keçirilməsi | 01.08.2023 | İcraçılar: Ədliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, Mərkəzi Bank | İlqar Cəfərov, Yaqub Qurbanov, Adil Əliyev, Nuranə Abbasova, Adil Əkbərov, Rasim Məmmədov |

Qeyd: * İcra müddəti “Hər yarımillikdən sonrakı 1 ay ərzində” müəyyən edilən tədbirlərə münasibətdə ilk yarımillik dövr olaraq 2022-ci ilin iyul-dekabr ayları nəzərdə tutulmuşdur.